# Sənətinin məcnunu

Söhbət Kürdəmir Rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri Vaqif Alıyevlə MKS direktoru Şahalı Şıxəliyevdən gedir. Bəri başdan deyim ki, Vaqif müəllim şöbə müdiri təyin olunandan rayonda çox şey dəyişib, mədəniyyətdə köklü dəyişikliklər baş verib. Hər şeydən öncə intizam möhkəmləndirilib. Bu vacib məsələdə Şahalı müəllim Vaqif Alıyevlə əl-ələ verib, bütün ərazini gəzib, nöqsanları yerindəcə ləğv etməyə çalışıb.



*Deməli olar ki, respublikamızın bütün bölgələrinə baş çəkmişəm. Amma heç bir rayonda şöbə müdiri ilə MKS direktoru arasında bu qədər gözəl münasibət, qarşılıqlı hörmət görməmişəm. Həvalə olunan işi birgə həyata keçirir, eyni dərəcədə məsuliyyət daşıyırlar.*

Şıxəliyev Şahalı Kamil oğlu Azərbaycan Dövlət Universitetinin (BDU) kitabxanaçılıq və biblioqrafiya fakültəsinin məzunudur. 1980-ci ildən mədəniyyət sahəsində çalışır. 1985-ci ildən Mərkəzləşdirilmiş Kitabxanalar Sisteminin direktorudur.

Şahalı müəllim kollektivinin fəaliyyəti barədə deyir:

- Rayonumuzda 65 kitabxana var. Onlardan 60-ı kənd, 3-ü şəhər, 1-i uşaq, 1-i mərkəzi kitabxanadır. Kitab fondumuz 359072 nüsxədir. Bunun 47751-i, yəni 13,2 faizi latın qrafikalı ədəbiyyatdır. Böyük minnətdarlıq hissilə qeyd etməliyəm ki, həmin kitabların əksəriyyəti - 39350 nüsxəsi möhtərəm Prezidentimizin hədiyyəsidir. Yeri düşmüşkən ABŞ səfirliyinə də öz dərin təşəkkürümüzü bildiririk. Onlar kitabxanamıza 2980 nüsxə ədəbiyyat hədiyyə etmişlər.

Kitablar aşağıdakı qaydada bölüşdürülmüşdür:

- şəhər üzrə - 15916 nüsxə;
- kənd üzrə - 313020 nüsxə;
- mərkəzi kitabxana üzrə - 23384 nüsxə;
- uşaq kitabxanası üzrə - 6752 nüsxə.

2006-cı ilin yekununa görə rayon üzrə 989082 nüsxə kitab verilişi olmuşdur. Ən çox kitab dövriyyəsi uşaq kitabxanasında qeydə alınmışdır - 5 dəfə! Mərkəzi kitabxanada bu rəqəm 3-ə, kənd kitabxanalarında isə 2-yə bərabər olmuşdur. Yeni ədəbiyyatın alınması oxucuların sayına da təsir etmişdir. Hazırda kitabxanalarımızdan 44595 nəfər istifadə edir.

Müəssisələrimizdə ixtisaslı kadrlara hələ də ehtiyac duyulur. Bütövlükdə kitabxanalarımızda 192 nəfər çalışır. Onlardan 116-sı əsas, 76 nəfəri isə texniki işçilərdir. Ali təhsillilərin sayı 11, ali ixtisas təhsilli 8, orta ixtisaslı 27, orta təhsillilər isə 78 nəfərdən ibarətdir.

2006-cı ildə kitabxanalarımıza 3605 nüsxə kitab daxil olub, o cümlədən Prezident fərmanı ilə 2484 nüsxə, Milli kitabxanadan 305 nüsxə, kitab kollektorundan 288 nüsxə, ABŞ səfirliyindən 274 nüsxə, müxtəlif mənbələrdən - 254 nüsxə. 2007-ci ildə 5382 nüsxə kitab almışıq.

Bu dövrdə kitabxanalarımızdan öz əhəmiyyətini itirmiş 328 nüsxə kitab silinmişdir.

Kitabxanalarımız rayonun bütün tədbirlərində yaxından iştirak edir, bayram və tarixi günlərin, yubileylərin yüksək səviyyədə keçirilməsi üçün rəngarəng tədbirlər keçirirlər. Bu işdə fərqlənən kitabxanalarımızın adlarını qeyd etmək istərdim: Yenikənd kənd (Ayna Abduləzizova), şəhər (Fəzilə Əliyeva), Karrar qəsəbə (Mehriban Vəzirova), Gənclər (Esmira Hacıyeva), Atakişili (Dürrə Kərimova) və Dayıkazımlı (Yaşar Nəzirov) kənd kitabxanaları.

İşlərin yüksək təşkilində MKS direktor müavini İradə Mahmudova, kitabişləmə şöbəsinin müdiri Ülkər Yunusova, metodika və biblioqrafiya şöbəsinin müdiri Növrəstə Qəhrəmanova, xidmət şöbəsindən Ayna Hidayətova və başqalarının xüsusi zəhmət payı vardır.

Ayrılarkən son dərəcə mehriban, diqqətcil, işgüzar ziyalı kimi tanıdığımız Ş.Şıxəliyev haqqında şöbə müdirinin ürək sözlərini dinləməyi də məqsədəuyğun bildik.

V.Alıyevin dediklərindən:

- Şahalı müəllim şöbənin həm fəhləsidir, həm mən olduğum halda da müdiri əvəz edəcək bir mütəxəssisdir, bütün vəzifələri məmnuniyyətlə yerinə yetirən bir şəxsdir. Yəni, onun üçün xüsusi bir sahə yoxdur. Harada iş var Şahalı müəllim oradadır. İstər fəhlə, istərsə də ziyalı işi olsun. Ömrünü mədəniyyətə bağlayıb. Neçə dəfə onu başqa yerə dəvət də ediblər. Bir dəfə hətta başçılardan birinin onu şəhərin icra nümayəndəsi təyin etmək planı da vardı. Amma o, mədəniyyəti hər şeydən üstün tutduğunu söyləməklə öz yerində qaldı...

**TURAL**